# ŞAİRLƏR VƏ ŞEİRLƏR HAQQINDA
## *aforizmlər*



Şairin, ilahi ilham və müqəddəs ruhla yazdığı hər bir şey olduqca gözəldir.

**Demokrit**

***

Şair və tarixçi bir-birindən sözlərinin qafiyəli olub-olmamasına görə fərqlənmir. Onların fərqi – birinin olanları, digəri isə ola biləcəkləri deməyindədir. Buna görə də poeziyada tarixdən daha çox, fəlsəfə, ciddiyyətlik var. Çünki tarix ümumi şeyləri göstərir.

**Aristotel**

***

Kim ki poeziyanın ayağına muzayla ilhamlanmadan gedir və sənətin təkcə onu şair edəcəyinə inanırsa, o, mükəmməllikdən uzaqdır və onun poeziyası ilhamlı şairin poeziyasının yanında heçnədir.

**Platon**

***

Poeziya və incəsənət – təkcə ifadənin deyil, həm də təfəkkürün xüsusi formasıdır.

**Yan Raynis**

***

Alim və şair arasında yaşıl çəmənlik var: alim onu keçə bilsə, müdrik, şair onu keçsə, peyğəmbər olacaq.

**Xəlil Cübran Cübran**

***

Kaş bir biləydiniz, necə zibildən şeirlər göyərir...

**Anna Axmatova**

***

Poetik istedad yaxşı zövqlə həmahəng olub güclü fikirlə istiqamət götürəndə çox şey ortalığa çıxa bilir. Bədii yaradıcılığın böyük qələbələr əldə etməsindən ötrü zəkanın geniş üfüqlərinə ehtiyac var. Ancaq ağlın mədəniyyəti ruhun mədəniyyətini mümkün edir.

**Valeri Yakovleviç Brüsov**

***

Şeir – sözdən istifadənin ən mükəmməl vasitəsidir. Və onu xırdalamaq, boş yerə istifadə etmək günahdır, ayıbdır...

**Valeri Yakovleviç Brüsov**

***

Bircə Allahı olan şailrərə – həqiqəti qorxmadan dilinə gətirən şairlərə eşq olsun!

**Maksim Qorki**

***

Poetik dil qısa, sıxılmış, mənzərəli və musiqilidir.

**Vladimir Qalaktionoviç Korolenko**

***

Şeir – hər şeydən öncə harmoniyadır.

**Vladimir Qalaktanoviç Korolenko**

***

Poeziya öz dövrünün deyil, dövrün özü olmalıdır. Amma kim ki öz dövrünün gələcəklə doğmalaşdıran xüsusiyyətlərini ifadə edirsə, sözsüz ki, ölməzləşir.

**Anatoli Vasliyeviç Lunaçarski**

***

Poeziyanın qeyri-adi bir xüsusiyyəti var. O, sözə özünün ilkin formasını, bakirəliyini qaytarır. Ən çox istifadə olunmuş, ən çox deyilmiş, sanki artıq dadı-duzu getmiş sözlər də poeziyada parlaya, cingildəyə, özünü yenidən göstərə bilir.

**Konstantin Georgiyeviç Paustovski**

***

Şairə ətrafı, mühit, insanlar, bəşəriyyət lazımsız və anlaşılmaz olanda, o, özü də ətrafındakılar üçün lazımsız və anlaşılmaz olur.

**Georgi Valentinoviç Plexanov**

***

Poeziya insan ürəyində yanan alovdur. Bu alov yandırır, isidir və təzələyir... Əsl şair özü də bilmədən özünü də, başqalarını da yandırır. Bütün iş bax bundadır.

**Lev Nikolayeviç Tolstoy**

***

Poeziya sözlərin oyuncaq kimi qafiyələnməsindən (təəssüf ki, çoxları belə hesab edir) ibarət deyil. İnsan gözünün gördüyündən daha dərin və daha uzaq üfüqləri əhatə edir.

**Romen Rollan**

***

Şeir yazmaq – Allaha sitayiş, Allaha dua etmək kimi bir şeydir.

**Anatol Frans**

***

Poeziyanın məqsədi – faydalı həqiqətdir.

**Pol Elüar**

***

Şairlər yalan danışır. Amma onların yalanı xoşagələndir.

**Alfred Adler**

***

Əsl şairlər öz personajları ilə onları yaradandan sonra qarşılaşırlar.

**Elias Kanetti**

***

Asan şeir yazandan, çətin ki yaxşı şair olar.

**Hans Georq Hadamer**

***

Poeziyada faktlar yoxdur, ancaq sözlər var, reallıq yoxdur, ancaq obrazlar var.

**Benedetto Kroçe**

***

İstənilən formada təqdim olunan mif poeziyanın özüdür.

**Yohan Heyzinq**

***

Şair uşaqdır – o, dünyanın ən gözəl təbəssümüylə – göz yaşları içində təbəssümlə gülür.

**Lev Karsavin**

***

Şair kütlə deyil. O, amansız dərəcədə tənhadır.

**Jorj Batay**

***

Avropa poeziyasından çığırtı yoxa çıxıb. Ancaq sözlərlə jonqlyorluq, akrobat və estetlərin bədiiliyi qalıb.

**Emil Mişel Çoran**

***

Əsl poeziya eynən fəlsəfə kimi poeziyanın sərhədlərindən sonra başlayır. Elə dünyada da hər şey eynən belədir.

**Emil Mişel Çoran**

***

Poetik ifadə məğzinə görə obrazları formaya salmır, əksinə, deformasiyaya uğradır.

**Rolan Bart**

***

Şair doğulurlar, natiqsə sonradan olurlar.

**Mark Tulli**

***

Parlaq günəşdə zərrə boyda ləkələrə fikir vermək lazım deyil. Ondansa Homerin zərrə boyda kölgəsi olan, işıq dolu əsərini ərsəyə gətirmək üçün nə qədər yuxusuz gecələr keçirdiyini düşünmək yaxşı olardı.

**Migel de Servantes**

***

Sadəlikdən, səmimilikdən uzaq olan şeirlər, yağlanmamış təkərlərin cırıltısından daha çox əsəbləri pozur.

**Uilyam Şekspir**

***

Bütün şairlər dəlidir.

**Robert Berton**

***

Şeirlər hər yerdə, hər zaman dahilərin ilk övladı və natiqlərin ilk müəllimi olublar.

**Volter**

***

Şair üçün predmeti bilmək, memar üçün tikinti materialını bilmək qədər vacibdir.

**Semuel Conson**

***

Poeziya üçün ideya hər şeydir... Poeziya ideyaya duyğunu qatır...

**Mety Arnold**

***

Analiz etmək şairin işi deyil. Onun ali məqsədi yaratmaqdır, parçalara bölmə deyil...

**Tomas Babinqton Makoley**

***

Çox güman ki, bütün şairlərin və hətta poeziyanı sevənlərin hamısında bir azca da olsa, ruhi xəstəlik var. Başqa cür mümkün deyil.

**Tomas Babinqton Makoley**

***

Poeziya Tanrının qulağa pıçıltısıdır.

**Pavel Semyonoviç Lunqin**

***

Poeziya söhbətdir. Artıq üzbəüz danışmaq üçün çox gec olan insanlarla söhbət.

**Dennis Odriskoll**

***

Rəssamlıq poeziyadır, onu görürlər. Poeziya rəssamlıqdır, onu eşidirlər.

**Leonardo da Vinçi**

***

Bir qisim şairlər hiss edirlər, bir qisim şairlərsə ifadə edirlər. Birincilər daha çox xoşbəxtdirlər.

**Onore de Balzak**

***

Gənc şairlər mürəkkəblərinə çox su qatırlar. Bəzi şairlər öz pəncələrini sümürən ayılara bənzəyirlər.

**Höte**

*Rus dilindən tərcümə edən:*
***Xanım Aydın***